Azərbaycan Respublikasının Vergilər Nazirliyinin Kollegiyasının 30.07.2015-ci il tarixli 1517050000006200 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

Əlavə - 1

***"Çağrı Mərkəzi vasitəsilə Sadələşdirilmiş verginin bəyannaməsinin təqdim edilməsi" elektron xidməti üzrə inzibati reqlament***

## 1. Ümumi müddəalar

**1.1. Elektron xidmətin adı:** *Çağrı Mərkəzi vasitəsilə "Sadələşdirilmiş verginin bəyannaməsi"nin təqdim edilməsi.*

**1.2. Elektron xidmətin məzmunu:** *Bu xidmət gücləndirilmiş elektron imzası (Azərbaycan Respublikası Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzləri tərəfindən verilmiş elektron imza) olan vergi ödəyicisinin (bundan sonra – istifadəçi) Azərbaycan Respublikasının Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (bundan sonra – Çağrı Mərkəzi) müraciəti əsasında Çağrı Mərkəzinin təmsilçisi tərəfindən onun təqdim etdiyi məlumatlar əsasında 1-ci, 2-ci və 3-cü rüblər üzrə "Sadələşdirilmiş verginin bəyannaməsi"nin hazırlanması və elektron qaydada göndərilməsini əhatə edir.*

**1.3. Elektron xidmətin göstərilməsinin hüquqi əsası:** *Azərbaycan Respublikası Vergi Məcəlləsinin 16-cı və 72-ci maddələri, Azərbaycan Respublikasının "Elektron imza və elektron sənəd haqqında" Qanunu, Azərbaycan Respublikası Prezidentinin "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" 23 may 2011-ci il tarixli 429 nömrəli Fərmanının 2-ci və 2-1-ci hissələri, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları", həmin Qaydalara 2 nömrəli əlavə - "Elektron xidmət növlərinin Siyahısı"nın 7.61-ci bəndi.*

**1.4. Elektron xidməti göstərən dövlət qurumunun adı:** *Azərbaycan Respublikası Vergilər Nazirliyi.*

**1.5. Elektron xidmətin digər icraçıları:** *Yoxdur.*

**1.6. Elektron xidmətin avtomatlaşdırma səviyyəsi:** *Qismən avtomatlaşdırılmışdır.*

**1.7. Elektron xidmətin icra müddəti:** *Elektron xidmətin icra müddəti icraçının tələb olunan məlumatları daxil etməsindən, istifadəçinin gücləndirilmiş elektron imza vasitəsilə əməliyyatları təsdiqləməsindən və əməliyyatların informasiya sistemi tərəfindən emalı müddətindən asılıdır.*

**1.8. Elektron xidmətin göstərilməsinin nəticəsi:** *Vergi orqanı tərəfindən Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi (bundan sonra - AVİS) vasitəsilə "Sadələşdirilmiş verginin bəyannaməsi" elektron formada tərtib edilərək gücləndirilmiş elektron imza vasitəsilə təsdiqləməsi üçün vergi ödəyicisinə göndərilir, məlumatların doğruluğu təsdiqləndikdən sonra bəyannamə vergi orqanına göndərilir və bu barədə vergi ödəyicisinin mobil telefonuna mesaj göndərilir.*

## 2. Elektron xidmətin göstərilməsinin həyata keçirilməsi

**2.1. Elektron xidmətin növü:** *İnteraktiv.*

**2.2. Elektron xidmət üzrə ödəniş:** *Ödənişsiz.*

**2.3. Elektron xidmətin istifadəçiləri:** *Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada vergi ödəyicisinin eyniləşdirmə nömrəsini (VÖEN) almış və Azərbaycan Respublikasının "Elektron imza və elektron sənəd haqqında" Qanununun müddəalarına əsasən gücləndirilmiş elektron imza əldə etmiş şəxslər.*

**2.4. Elektron xidmətin təqdim olunma yeri:** *http://www.taxes.gov.az/; http://www.e-gov.az.*

**2.5. Elektron xidmət barədə məlumatlandırma:**

**2.5.1.** *https://www.taxes.gov.az;*

**2.5.2.** *https://www.e-taxes.gov.az;*

**2.5.3.** *https://www.e-gov.az;*

**2.5.4.** *https://asanimza.az;*

**2.5.5***. Vergi ödəyicilərinə xidmət mərkəzləri;*

**2.5.6.** *Azərbaycan Respublikasının Vergilər Nazirliyinin Çağrı Mərkəzi (195-1);*

**2.5.7.** *office@taxes.gov.az.*

**2.6. Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər və onların təqdim olunma forması:** *Bu xidmətin göstərilməsi üçün müraciət edən şəxsdən gücləndirilmiş elektron imza nömrəsi və ASXM tərəfindən təqdim edilmiş "Sertifikatın aktivləşdirilməsi haqqında bildiriş"də əks olunan İstifadəçi İD-si soruşulur.*

**2.7. Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər dövlət orqanlarının informasiya ehtiyatında olduqda:** *Yoxdur.*

## 3. Elektron xidmətin göstərilməsi üçün inzibati prosedurlar

**3.1. İnteraktiv elektron xidmətlər üçün sorğu:** *İnteraktiv xidmətin istifadəçisi olan vergi ödəyicisi Azərbaycan Respublikası Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzləri tərəfindən verilmiş gücləndirilmiş elektron imzaya və ondan istifadəyə imkan verən avadanlığa malik olmalıdır.*

**3.1.1. Sorğunun formalaşdırılması və qəbulu aşağıdakı mərhələlərdən ibarətdir:**

**3.1.1.1. Sorğunun formalaşdırılması:**

**1.** *İstifadəçi Vergilər Nazirliyinin Çağrı Mərkəzinə zəng etməklə müraciət edir;*

**2.** *İstifadəçi ondan soruşulan gücləndirilmiş elektron imza mobil nömrəsi və İstifadəçi İD məlumatını bildirir;*

**3.** İ*stifadəçi tərəfindən hansı hesabat dövrü üzrə bəyannamə təqdim etmək istədiyi bildirilir;*

**4.** *İstifadəçiyə bəyannamə üzrə yaranacaq vergi öhdəlikləri barədə SMS göndərilir;*

**5.** *İstifadəçi SMS-lə tanış olur və razılığını Çağrı Mərkəzinin təmsilçisinə bildirir;*

**6.** *İstifadəçi razılığını bildirdikdən sonra yoxlama kodunu təsdiqləyir və gücləndirilmiş elektron imza PİN 2 kodunu daxil etməklə bəyannaməni imzalayır;*

**7.** *Əməliyyat başa çatdıqdan sonra istifadəçinin "Onlayn kargüzarlıq"səhifəsinə Əməliyyat tarixçəsi barədə məlumat göndərilir.*

**3.1.1.2. Sorğunun qəbulu:** *Sadələşdirilmiş vergi bəyannaməsi vergi ödəyicisi tərəfindən təsdiqləndiyi andan sistemdə qeydiyyata alınmış olur və sistemdə həmin bəyannamə üzrə 16 rəqəmli qeydiyyat nömrəsi əks olunmuş bildiriş yaradılır.*

**3.2. Elektron Xidmətin göstərilməsi və ya imtina edilməsi:**

**3.2.1. Sorğunun yerinə yetirilməsindən imtina halları:** *Elektron xidmətə daxil olunması, "Sadələşdirilmiş verginin bəyannaməsi"nin tərtib edilməsi və təsdiqlənməsindən aşağıdakı hallarda imtina edilir,*

1. *Gücləndirilmiş elektron imza nömrəsi və ya İD nömrəsi səhv bildirilərsə;*
2. *Mobil nömrədə gücləndirilmiş elektron imza xidməti aktiv olmadıqda;*
3. *Müraciət etmiş şəxsin gücləndirilmiş elektron imza sahibi olmadığı müəyyən edilərsə;*
4. *Səyyar vergi yoxlaması ilə əhatə edilmiş dövr üzrə bəyannamə verilməsi istənilərsə;*
5. *4-cü rüb üzrə bəyannamə verilməsi istənilərsə;*

**6.** *Vergi ödəyicisinin sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququnu itirməsi ilə əlaqədar, eyni zamanda vergi ödəyicisi olan hüquqi şəxsin ləğv edilməsi və ya fərdi sahibkarın fəaliyyətinə xitam verilməsi ilə əlaqədar ləğv bəyannamənin verilməsi istənilərsə;*

**7.** *Mükəlləfiyyət uyğun deyilsə;*

**8.** *Bəyannaməyə qeyd edilməli olan məlumatlar dəqiq bildirilməzsə;*

**9.** *"Sadələşdirilmiş verginin bəyannaməsi"nin dövrü səhv göstərilərsə.*

**3.2.2. Sorğunun qəbulu:** *İmtina üçün əsas olmadıqda "Sadələşdirilmiş verginin bəyannaməsi" vergi orqanı tərəfindən hazırlanır və təsdiq olunması üçün vergi ödəyicisinə məlumat göndərilir.*

**3.3. Sorğunun icrası:**

**3.3.1. Ardıcıl hər bir inzibati əməliyyat, o cümlədən məsul şəxs haqqında məlumat:**

**1.** *İstifadəçi tərəfindən gücləndirilmiş elektron imza mobil nömrəsinin və İstifadəçi İD-nin təqdim edilməsi, məsul şəxs- istifadəçi;*

**2.** *İstifadəçi tərəfindən təqdim edilmiş gücləndirilmiş elektron imza mobil nömrəsi və İstifadəçi İD məlumatlarının sistemdə yoxlanılması, məsul şəxs- Vergilər Nazirliyi;*

**3.** *"Sədələşdirilmiş verginin bəyannaməsi"nin təsdiq edilməsi məqsədilə hazırlanmış bəyannamə üzrə yaranacaq vergi öhdəlikləri barədə istifadəçiyə SMS-in göndərilməsi, məsul şəxs – Vergilər Nazirliyi;*

**4.** *İstifadəçi tərəfindən yaranacaq öhdəliklər barədə göndərilmiş SMS-in təsdiq edilməsi, məsul şəxs – istifadəçi;*

**5.** *İstifadəçi SMS-lə tanış olduqdan və razılaşdıqdan sonra Çağrı Mərkəzinin təmsilçisi tərəfindən "İmzaya göndər" düyməsini sıxmaqla istifadəçiyə əməliyyatı təsdiq üçün göndərilməsi, məsul şəxs – Vergilər Nazirliyi;*

**6.** *İstifadəçi tərəfindən yoxlama kodunun təsdiqlənməsi və gücləndirilmiş elektron imza PİN 2 kodunu daxil etməklə bəyannamənin imzalanması, məsul şəxs – istifadəçi;*

**7.** *İstifadəçi tərəfindən imzalama əməliyyatı aparıldıqdan sonra onun "Onlayn kargüzarlıq" səhifəsinə Əməliyyat tarixçəsi barədə məlumatın göndərilməsi, məsul şəxs – Vergilər Nazirliyi.*

**3.3.2. Hər bir inzibati əməliyyatın məzmunu, yerinə yetirilmə müddəti və/və ya maksimal yerinə yetirilmə müddəti:** *İcraçının tələb olunan məlumatları daxil etməsindən, istifadəçinin gücləndirilmiş elektron imza vasitəsilə əməliyyatları təsdiqləməsindən və daxil edilən məlumatların informasiya sistemində emalı müddətindən asılı olaraq elektron xidmət yerinə yetirilir.*

**3.3.3. İnzibati əməliyyatda iştirak edən digər dövlət orqanı haqqında məlumat:** *Yoxdur.*

**3.3.4. Hər bir inzibati prosedurun nəticəsi və onun verilməsi qaydası:** *Xidmətin yerinə yetirilməsi nəticəsində vergi ödəyicisinin "Sadələşdirilmiş verginin bəyannaməsi" təsdiqləndikdən sonra təqdim edilir və bu barədə sistemdə bildiriş yaradılır.*

**3.4. Elektron xidmətin yerinə yetirilməsinə nəzarət:**

**3.4.1. Nəzarət forması:** *Elektron xidmətin göstərilməsi zamanı aparılan proseslərə Azərbaycan Respublikasının Vergilər Nazirliyinin proqram təminatı vasitəsilə onlayn qaydada nəzarət edilir.*

**3.4.2. Nəzarət qaydası:** *Bu prosesdə yaranan hər hansı anlaşılmazlığın aradan qaldırılması və ya metodiki dəstəyin göstərilməsi məqsədilə Azərbaycan Respublikası Vergilər Nazirliyinin Çağrı Mərkəzi (195) fəaliyyət göstərir.*

**3.5. Elektron xidmətin göstərilməsi üzrə mübahisələr:** *İstifadəçi elektron xidmətlə bağlı onu razı salmayan istənilən məsələ barədə inzibati qaydada yuxarı səlahiyyətli orqana (vəzifəli şəxsə) və məhkəməyə şikayət edə bilər.*

**3.5.1. İstifadəçinin şikayət etmək hüququ haqqında məlumat:** *Elektron xidmətin göstərilməsindən və ya elektron xidmətin göstərilməsindən imtinadan qanunvericiliyə uyğun olaraq inzibati qaydada və məhkəməyə şikayət verilə bilər.*

**3.5.2. Şikayətin əsaslandırılması və baxılması üçün lazım olan informasiya:** *İnzibati şikayətin forması "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununun 74-cü maddəsinə uyğun olmalıdır.*

**3.5.3. Şikayətin baxılma müddəti:** *Şikayət inzibati orqana verildikdə, şikayətə "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununun 78-ci maddəsinə əsasən 1 ay müddətinə baxılır. Məhkəməyə verilən şikayətə Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada baxılır.*

* * *